

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 18-19
(7346-7347) ✲ Çərşənbə axşamı, 9 mart 2016-cı il. ✲ Qəzet ayda 4 dəfə çıxır ✲ Qiyməti 40 qəpik




## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də BMT-nin Dünya Turizm Təşkilatının baş katibi Talib Rifainin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Cənab Prezident görüş zamanı dünyada iqtisadi böhranın mövcud olduğu indiki zamanda turizm sahəsinin yeni iş yerlərinin yaradılması, ölkəyə maliyyə axınının təmin edilməsi, digər məsələlər baxımından əhəmiyyətini və islahatların davam etdirilməsini bildirmişdir.

✲ ✲ ✲

Macarıstanın baş naziri Viktor Orbanın Azərbaycana səfəri çərçivəsində Prezident İlham Əliyevlə təkbətək görüşü olmuşdur. Görüşdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə uğurlu inkişafından məmnunluq bildirilmişdir.

✲ ✲ ✲

Martın 6-da təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Macarıstanın baş naziri Viktor Orbanın nümayəndə heyətinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilib. Görüşdə tərəflər bütün istiqamətlərdə ikitərəfli münasibətləri genişləndirmək niyyətində olduqlarını bildirmiş, nəqliyyat, energetika, kənd təsərrüfatı, su təchizatı, informasiya-kommunikasiya texnologiyaları, şəhər təsərrüfatı və infrastruktur sahələrdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılmışdır. Sonra Prezident İlham Əliyev və Baş nazir Viktor Orban mətbuata bəyanatla çıxış etmişlər.

✲ ✲ ✲

Azərbaycan Prezidenti İlham Əliyev martın 7-də Gürcüstanın xarici işlər naziri Mixeil Canelidzeni qəbul edib. Gürcüstanla əməkdaşlığın fəal şəkildə davam etdirildiyini bildirən Prezident İlham Əliyev əlaqələrin siyasi, iqtisadi, energetika, humanitar sahələrdə və eləcə də çoxtərəfli formatda inkişaf etdirilməsi üçün geniş imkanlar olduğunu bildirmişdir

Görüşdə birgə tədbirlər proqramının nəzərdən keçirilməsi üçün yaxşı imkanlar olduğu vurğulanmışdır.

✲ ✲ ✲

Qətər dövlətinin əmiri şeyx Təmim bin Həməd Al Taninin Azərbaycana səfəri çərçivəsində ölkə Prezidenti İlham Əliyevlə təkbətək və geniş tərkibdə görüşü olmuşdur. Görüşdə ikitərəfli münasibətlərin daha da dərinləşdirilməsi ilə əlaqədar fikir mübadiləsi aparılmışdır.

**Nadir Atakişiyev.**

## 8 mart—Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik

**Hörmətli xanımlar!**

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, səadət və uğurlar arzulayıram.

Azərbaycan qadınının cəmiyyətimizdə qazandığı yüksək mövqe və elmdə, təhsildə, mədəniyyətdə fəth etdiyi zirvələr bizim tarixi nailiyyətimiz, əbədi qürur mənbəyimizdir. Onun ictimai nüfuzu dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümünü vahid məfkurə ətrafında birləşmiş şəkildə qarşılamağa hazırlaşan Azərbaycanın müasir həyatının diqqətəlayiq gerçəkliyidir. Azərbaycan xanımları ülvi amallar naminə zəngin ictimai fəaliyyətləri boyunca özlərinin daxili aləmlərinin ahəngdarlığını həmişə layiqincə qoruyub saxlamış, mürəkkəb sosial-siyasi dəyişikliklərin baş verdiyi ən müxtəlif dövrlərdə cəmiyyətimizin əsl mənəvi dayağı olmuşlar.

İnsan qəlbinin gözəlliklərinin tərənnümçüsü kövrək təbiətli qadın şair və musiqiçilərimizin, xeyirxahlıq, insanpərvərlik rəmzi qadın həkim və müəllimlərimizin adları yaxın keçmişimizin hər bir səhifəsini bəzəyir. Milliliklə müasirliyin vəhdətini mənəviyyatının ayrılmaz tərkib hissəsinə çevirən Azərbaycan qadınının zərifliyi, saflığı və sədaqəti söz, sənət abidələrimizdə əhatəli bədii təcəssümünü tapmışdır. Xalqımızın onun cəmiyyət həyatında yaxından iştirakına münasibətinin nəticəsidir ki, Azərbaycanda qadın hərəkatının görkəmli xadimləri öz dərin zəkalarına, tükənməz potensiallarına güvənərək yeni tarixi şəraitdə böyük müvəffəqiyyətlər qazanmışlar.

İnanıram ki, sürətlə qloballaşan dünyada gənc nəslin çoxəsrlik tarixi-mədəni irsimizə ehtiram, vətənpərvərlik və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda yetişdirilməsi üçün siz bundan sonra da əlinizdən gələni əsirgəməyəcək, bütün gücünüzü, istedad və bacarığınızı ölkənin intellektual-mənəvi sərvətlərinin zənginləşdirilməsi yolunda səfərbər edəcəksiniz.

**Bayramınız mübarək olsun!**

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bakı şəhəri, 4 mart 2016-cı il.*

## Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Macarıstanın ali ordeni ilə təltif edilib

Martın 6-da Macarıstanın Baş naziri Viktor Orbanın ölkəmizə rəsmi səfəri çərçivəsində Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın «Macarıstanın Xidmətlərə görə Komandor Xaçı» ordeni ilə təltif olunması mərasimi keçirilmişdir. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak etmişdir.

Mərasimdə çıxış edən Baş nazir Viktor Orban demişdir ki, xanım Mehriban Əliyevanın apardığı fəaliyyət bütün dünyada tanınır. Macarıstan Prezidentinin qərarı ilə təqdim olunan bu ordeni cənab Prezident İlham Əliyevin həyat yoldaşına yox, məhz ən tanınan Azərbaycan xanımına təqdim edirik. Baş nazir demişdir ki, ümumiyyətlə, mənə elə gəlir ki, Azərbaycan və macar xanımlarının arasında oxşarlıqlar çoxdur.

Mərasimdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva çıxış edərək Macarıstan dövlətinin yüksək mükafatı ilə təltif edildiyinə görə Baş nazirə, Macarıstan xalqına dərin hörmət və məhəbbətini, təşəkkürünü bildirmişdir.

## İnkişaf, tərəqqi və Qəbələ

Regionların sosial-iqtisadi inkişafı üzrə üç Dövlət proqramının icrası ölkənin sosial iqtisadi inkişafını, demək olar, əsaslı surətdə dəyişmişdir. İndi bu proqramların icrasının nəticəsində nəinki şəhərlərimizdə, hətta qəsəbə və kəndlərimizdə də fəaliyyət göstərən istehsal müəssisələrimiz vardır. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə 12 ildə ölkədə 70 mindən çox müəssisə yaradılmışdır. Bunların hər biri iş yeri, əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün başlıca amil deməkdir. Son dörd ilin faktlarına nəzər salsaq görərik ki, 2012-ci ildə müxtəlif sahələrdə yaradılan müəssisələrin sayı 4,4, 2013-cü ildə 8,9, 2014-cü ildə 9,9, 2015-ci ildə isə 6,1 faiz artmışdır.

Son 12 ilin tərəqqisindən, əlbəttə, Qəbələyə də xeyli pay düşmüşdür. Qəbələdə meyvə konservi, cibsi, çınqıl, limonad istehsalı kimi zavodlar tikilib istifadəyə verilmişdir. Turizmin inkişafı üzrə Qəbələ respublika regionları arasında öndə gedən rayonlardan biridir. Burada beşulduz, dördulduz, uçulduz otellərin tikintisi hazırda da davam etdirilməkdədir.

2013-cü ildə cənab Prezident lham Əliyevin Qəbələyə səfəri çərçivəsində «Gilan Holdinq» aqrar sənaye kompleksi açılmışdır. 26 hektar sahəsi olan müəssisədə qısa müddət ərzində bir sıra nailiyyətlər əldə olunmuşdur. Burada 1750 baş heyvanın saxlanması üçün südlük və ətlik istiqamətli heyvandarlıq kompleksi, müasir suvarma sisteminin tətbiqinə əsaslanan əkinçilik təsərrüfatı və «Aqroservis» fəaliyyət göstərir. Kompleks üçün 55-ə yaxın müasir kənd təsərrüfatı texnikası və aqreqatından ibarət servis təşkil olunub.

Kompleks ilk nəticələrini vermişdir. Yetişdirilən ilk cins düyələrin 32 başı artıq Türkmənistana ixrac olunmuşdur.